# HİKMƏT XƏZİNƏSİNDƏN

## Dahilərin müdrik kəlamları

*Əziz oxucularımız, "Azərbaycan müəllimi" bu sayından etibarən Azərbaycan və dünya klassiklərinin günümüzlə səsləşən ölməz əsərlərindən, fikirlərindən sitatlar verəcək. Dühalarımızın, sənət ustadlarımızın Vətən, Torpaq, Ana, ailə sevgisi və özündə digər mənəvi-əxlaqi dəyərləri cəmləşdirən, eyni zamanda təhsilin, elmin, sözün qüdrətindən bəhs edən yaratdıqları sənət nümunələri, müdrik fikirləri bu gün də aktuallığını qoruyub saxlamaqdadır.*



Nizami Gəncəvi

Elmlə, ədəblə tapılar şəref,
Mirvari olmasa, nə lazım sədəf.

***

Xüdpəsənd olmayan təmiz bir insan,
Qorxmaz nə yaxşıdan, nə də yamandan.

***

Yaxşılıqla pisdən qorunmaq mümkün,
Dünyada yaxşılıq hər şeyə üstün.

***

Bir kəsin dadına istəsən çatmaq,
O zaman ləngimə, tələs sən ancaq.

***

Öz qəbiləsinə asi olan şəxs
Onunla bir yerdə yaşaya bilməz.

***

Qan ilə islanmış zülmkar başdan,
Şübhə yox, yaxşıdır başsız bir insan.

***

Dünyanı namusla olur saxlamaq,
Onunla ucalır dövlət və bayraq.

***

Məmləkətin dayağı ədalətdir hər zaman,
Ədalətin nəsibi səadətdir hər zaman.

***

Madam ki, sülh ilə göyərər dilək,
Döyüşə at çapmaq daha nə gərək?

***

Birlikdən yaranıb zəfər döyüşdə,
Dostların birliyi gərək hər işdə.

***

Əqilli adamla dostluq bağlasan,
Bilik və mərifət alarsan ondan.

***

Mən meydan əriyəm, sən də bir kişi,
Mərdliklə seçilir hər mərdin işi.

***

Düşmən silahlansa qarşında əgər,
Sən də qılınc vurub quvvəni göstər.